UŞAQLAR ÜÇÜN

# MƏHƏMMƏD PEYĞƏMBƏRİN (ALLAHIN ONA SALAMI OLSUN!) HƏYAT HEKAYƏSİ



Tovhid.info

**Müəlliflər:**

Muhəmməd Suveyyəni
Bəssəm Tarras

**Tərtibatçı:**

Dr. Yusif ibn Əbdürrəhman ər-Rəşid

**Rəssam:**

Rəsmlər "Smart Ficn" şirkəti tərəfindən hazırlanmışdır.

**Tərcüməçi:**

Salahova Ləman (Ummu Zeyd)

**Məsləhətçi:**

Əbu Zeyd Həbibli

**Redaktə:**

Sevinc Qocayeva

**Dizayn:**

Mehman Hidayətov


© Kitabın bütün hüquqları qorunur

بسم الله الرحمن الرحيم

# MƏRHƏMƏTLİ VƏ RƏHMLİ ALLAHIN ADI İLƏ

# MÜNDƏRİCAT


Fil hadisəsi .......... 2
Peyğəmbərin doğumu .......... 4
Peyğəmbərin uşaqlığı .......... 6
Uşaqlıqdan gəncliyə doğru .......... 8
Peyğəmbərin evliliyi .......... 10
İlk vəhy .......... 12
Peyğəmbərlik vəzifəsi .......... 14
İslam dininə dəvət .......... 16
Din uğrunda çəkilən əziyyətlər .......... 18
Həbəşistana köç .......... 20
Taif əhlinin zülmü .......... 22
Merac hadisəsi .......... 24
Yəsrib əhli ilə görüş .......... 26
Yəsrib şəhərinə köç .......... 28
Mədinə şəhərində .......... 30
Din qardaşlığı .......... 32
Kafirlərin artan qəzəbi .......... 34
Din uğrunda savaş .......... 36
Müsəlmanların artan izzəti .......... 38
Məkkənin fəthi .......... 40
Ərəb qəbilələrinin İslamı qəbul etməsi .......... 42
İslam dövləti .......... 44
Vida həcci .......... 46
Peyğəmbərin vəfatı .......... 48
Peyğəmbərin vəfatından sonra .......... 50
Peyğəmbərin ümməti üzərində olan haqları .......... 52

## ✦ FİL HADİSƏSİ ✦



**Böyük bir ordu atlar, dəvələr və arabalarla Məkkə şəhərinə hücum etdi. Həmin ordunun önündə böyük bir fil var idi. Bütün bunları görən Məkkə camaatı qorxuya düşdü. Məkkə camaatının böyüyü, ağsaqqalı olan Əbdülmüttəlib qoşunun önünə çıxdı və ordunun sərkərdəsinə belə dedi:**

***"Nə istəsən, sənə verərik, amma Kəbəyə toxunma!"***

Sərkərdə belə cavab verdi:
*"Xeyr! Kəbəni yerlə bir etməmiş mən geri dönən deyiləm".*

Əbdülmüttəlib üzgün halda geri qayıtdı və Kəbəni onlardan qoruması üçün Allaha dua etdi. Uca Allah ordunun üzərinə dəstə-dəstə qorxunc quşlar göndərdi. Həmin quşlar caynaqlarında tutduqları daşları ordunun üstünə yağdırmağa başladı. Beləcə başçıları öldü, ordu isə darmadağın oldu və qaçmağa başladı. Baş vermiş bu hadisəyə görə həmin il "Fil ili" adlandı.

## Fayda:

***Müqəddəs Kəbə evinin Allah yanında böyük dəyəri vardır. Bu səbəbdən onu qorumaq üçün fədakarlıq göstərmək hər bir müsəlmanın borcudur. Düşmən üzərində qələbə qazanmaq üçün Allahdan yardım diləmək zəruridir.***



Həmin il (yəni Fil ilində) Məhəmməd dünyaya göz açdı. Anası Vəhbin qızı Əminə, atası isə Əbdülmüttəlibin oğlu Abdullah idi.

Atası onun doğumuna az bir müddət qalmış vəfat etdi.

Məhəmməd dünyaya gəldikdə anası Əminə bir nurun şölə saçdığını gördü, sanki o bir nur parçası doğmuşdu.

O zaman ki Məhəmməd dünyaya gəldi, anası ona süd verməyə, ona qayğı göstərməyə başladı.

Onu da qeyd edək ki, öz övladlarını gözəl nitq qabiliyyətinə sahib olmaları və həyatın çətinliklərinə, keşməkeşli günlərinə vərdiş etmələri üçün səhraya göndərmək (kənd həyatına vərdiş etdirmək) o dövrdə ərəblərin adəti idi.

## Fayda:

*Məhəmməd peyğəmbər (Allahın ona salam-duası olsun!) dünyaya gəldiyi gün yer üzü nura qərq oldu. Əgər biz də onun yolu ilə getsək, həyatımız xeyir əməllərlə nurlanar.*



Bir gün Həlimə adlı bir qadın gəldi.
O, pul müqabilində süd vermək və dayəlik etmək üçün özü ilə səhraya (kəndə) aparmağa uşaq axtarırdı və Məhəmmədi tapdı.

Dayəlik etməsi üçün onu anasından istədi, o da buna razılıq verdi.

Həlimə onu öz kəndinə apardı. Balaca Məhəmməd öz uşaqlığını Həlimənin diyarında – təbiət qoynunda keçirdi.

Onun gəlişi ilə Həlimənin yaşadığı kəndə Uca Allahın xeyir-bərəkəti endi: kəndin yaşıllığı artdı, mal-qara kökəlməyə və daha çox süd verməyə başladı.

Məhəmməd böyüdükdən, danışmağa başladıqdan və qoyun otarmağı bacardıqdan sonra Həlimə onu anası Əminəyə geri qaytardı.

## Fayda:

*Uca Allah peyğəmbərimiz Məhəmmədi (Allahın ona salam-duası olsun!) sevir. Ona görə də onu hər getdiyi yerdə bərəkətli edirdi.*



Məhəmməd anası Əminə ilə birgə Yəsribdə yaşayan xalalarını ziyarət etmək üçün səfərə çıxdı.

Məkkəyə geri döndükdə yolda anası xəstələndi və vəfat etdi. Balaca Məhəmmədin ağlayan gözləri önündə anasını dəfn etdilər.

O, anasının vəfatına görə çox üzüldü. Məkkəyə çatdıqda babası Əbdülmüttəlib onu öz evinə apardı, himayəsinə götürdü və qayğısına qaldı.

Babası vəfat etdikdən sonra onu əmisi Əbu Talib himayəsinə aldı və böyüyənə qədər onun övladları ilə birgə yaşadı.

Böyüdükdən sonra çobanlıq və ticarətlə məşğul olmağa başladı. Dürüstlüyə və insanların malını qorumağa çox həris idi. Buna görə də camaat ona “Sadiq” (dürüst) və “Əmin” (etibarlı) ləqəblərini verdi.

## Fayda:

*Ananın qədir-qiyməti çox əzəmətlidir. Onun qayğısına qalmaq, qulluğunda durmaq və üzərimizdə olan haqlarını bilmək bizim borcumuzdur. Allah gələcəkdə böyük şəxsiyyətlər olması üçün yetim uşaqların qarşısına onları himayə edəcək birini çıxardır.*



Gənc Məhəmməd iyirmi yaşına çatdıqda Xuveylidin qızı Xədicə ilə evləndi.

Onlar birlikdə gözəl həyat sürdülər. Məhəmmədin Xədicədən Zeynəb, Rüqəyya, Ümmü Gülsüm, Fatimə adlı dörd qızı, Qasım və Abdullah adlı iki oğlu oldu.

Bir müddət sonra Məhəmməd Məkkədə yerləşən Hira adlı mağarada tək və şəriksiz olan Allaha ibadət etmək üçün təkliyə çəkilməyə başladı.

O, bütləri sevmirdi, heç bir xeyri və zərəri olmayan bütlərə ibadət edən qövmünə isə təəccüb edirdi.

## Fayda:

*İslam və hidayət (iman) nemətinə görə Allaha şükürlər olsun!*

*Hər kim Məhəmməd peyğəmbəri (Allahın ona salam-duası olsun!) sevirsə, ona tabe olmalı, Allahdan başqasına ibadət etməməli və peyğəmbər kimi o da tövhid (təkallahlılıq) inancı üzərində olmalıdır.*



Məhəmməd bəzi şeylər görməyə və səslər eşitməyə başladı. Onun gördüyü bu şeyləri və eşitdiyi səsləri ondan başqası görmür və eşitmirdi. Axşam gördüyü hər yuxu səhər çin olurdu.

Bir gecə Hira mağarasında olduğu vaxt mələklərin böyüyü Cəbrayıl (Allahın ona salamı olsun!) onun yanına gəldi.

Onu gördükdə Məhəmməd çox qorxdu və ondan nə istədiyini soruşdu. Cəbrayıl qanadlarını açdı, onu qanadları arasına alıb özünə tərəf çəkdi və ona “oxu!” – dedi.

Məhəmməd: “Nə oxuyum?” dedikdə Cəbrayıl belə cavab verdi: “Yaradan Rəbbinin adı ilə oxu! O, insanı qan laxtasından yaratdı. Oxu! Sənin Rəbbin böyük səxavət sahibidir. O Rəbbin ki qələmlə yazmağı və insana bilmədiklərini öyrətdi”.

## Fayda:

*Oxumaq və elm əldə etmək insan həyatında çox önəmlidir.*

*Buna görə də Peyğəmbərimizə nazil olan ilk Quran ayəsi “Yaradan Rəbbinin adı ilə oxu!” kəlamıdır. Biz də faydalı elm əldə etməyə həris olmalıyıq.*



Məhəmməd qorxaraq mağaradan çıxdı, ətrafına boylandı, lakin Cəbrayılı görmədi.

Tez evinə doğru yol aldı, titrək halda evinə daxil oldu və “üstümü örtün!” – dedi.

Həyat yoldaşı Xədicə ona dedi: “Sən xeyirxah və səxavətli insansan, ehtiyacı olanlara və zəiflərə əl tutursan. Uca Allah bu cür insanları sevir. Qorxma, Uca Allah səninlədir”.

Bir neçə gündən sonra Cəbrayıl yenə də ona göründü və belə dedi: “Ey Məhəmməd, sən Allahın peyğəmbəri, mən isə Cəbrayılam”.

Daha sonra Cəbrayıl ona insanların arasına çıxıb onları tək olan Allaha ibadət etməyə və Allahdan başqasına ibadət etməməyə səsləməyi əmr etdi.

## Fayda:

***Əgər uşaqlıqdan öz əxlaqımıza diqqət yetirsək, böyüdükdən sonra Uca Allah həmin əxlaqın bərəkətini qarşımıza çıxardar və bizi böyük nemətlərlə mükafatlandırar.***



Peyğəmbər (Allahın ona salamı olsun!) öz qövmünü, yaxınlarını bir yerə yığdı və onlara belə dedi: "Nə vaxtsa sizə yalan danışmışammı?"

Belə cavab verdilər: "Heç vaxt sənin yalan danışdığını görməmişik və sənin hər dediyin sözə inanırıq".

Bunun üzərinə o dedi: “Mən Allahın sizə göndərdiyi peyğəmbərəm. Allah sizə yalnız özünə ibadət etməyi və bütləri tərk etməyi əmr edir”.

Bunu eşidən əmisi Əbu Ləhəb “sənə ölüm olsun!” deyərək qışqırdı. Bu hadisədən sonra başda Əbu Ləhəb və Əbu Cəhl olmaqla Qureyş qəbiləsinin çoxu onu yalançı hesab etməyə, söyməyə və onunla mübarizə aparmağa başladı.

Peyğəmbər isə bütün əziyyətlərə səbir edərək öz dəvətinə (təbliğinə) davam etdi.

## Fayda:

*İnsanlara tövhid etiqadını (təkallahlığı) aşılamaq, onları xeyir əməllərə təşviq etmək və Peyğəmbərimizi (Allahın ona salamı olsun!) örnək tutaraq insanlardan gələn əziyyətlərə səbir etmək bizə vacibdir.*

# ✦DİN UĞRUNDA ÇƏKİLƏN ƏZİYYƏTLƏR✦



Həyat yoldaşı Xədicə, dostu Əbu Bəkr, əmisi oğlu Əli və qövmündən bir dəstə kasıb, zəif insanlar İslamı qəbul etdi.

Müşriklər (bütə tapınanlar) dindən dönmələri üçün onlara əziyyət veməyə başladılar.

Müsəlmanları odla damğalayır, qamçılayır və bəzilərini öldürürdülər. Bütün bunlara rəğmən, onlardan heç kəs dinindən dönmədi. Əksinə, günü-gündən, İslam yayılmağa və müsəlmanlar çoxalmağa başladı. Çünki onlar Uca Allahın rizasını və Cənnəti istəyirdilər.

## Fayda:

***Səhabələr (Peyğəmbərin dostları) böyük şəxsiyyətlər idilər.***

***Allahın rizasına nail olmaqdan ötrü bütün əziyyətlərə qatlanıb, səbir etmiş və İslam dinini bizə çatdırmışlar.***

***Allah onları xeyirlə mükafatlandırsın!***

# ✦ HƏBƏŞİSTANA KÖÇ ✦




**Müsəlmanlara verilən əzab-əziyyət günbəgün artırdı. Buna rəğmən, Peyğəmbər (Allahın ona salamı olsun!) onlara müşriklərə müqavimət göstərməməyi, əksinə, Afrika qitəsində yerləşən Həbəşistan diyarına köçməyi əmr etdi.**

**Çünki oranın padşahı ədalətli biri idi.**

Bəzi müsəlmanlar dəniz yolu ilə Həbəşistana getdilər.

Lakin müşriklər onlardan əl çəkmədilər və Həbəşistana bir neçə nəfər adam göndərib onları geri qaytarması üçün oranın padşahından xahiş etdilər.

O isə: “Mən müsəlmanları dinləmədikcə sizin xahişinizi qəbul edə bilmərəm”, – dedi.

Müsəlmanlar Qurani-Kərimdən bəzi ayələri ona oxuduqdan sonra o da İslam dinini qəbul etdi və onlara öz ölkəsində əmin-amanlıq içində yaşamaları üçün icazə verdi.

## Fayda:

***Hər hansı bir yerdə öz dinini yaşaya bilməyən müsəlman dinini yaşaya biləcəyi başqa bir diyara köçməlidir.***

# ✦TAİF ƏHLİNİN ZÜLMÜ✦



Peyğəmbər (Allahın ona salamı olsun!) Məkkədə idi.

Onunla bərabər Məkkədə qalan möminlər müşriklərin acımasız zülmləri səbəbilə qorxu içində idilər.

Peyğəmbər onları himayə edəcək bir diyar axtarmağa başladı və sonda Taif şəhərinə getdi.

O ümid edirdi ki, oranın əhli ona kömək edəcək, onu və onunla bərabər olan möminləri himayə edəcək.

Lakin oranın əhli onu daşqalaqla qarşıladı. Bədənindən qan axana qədər onu daşa basdılar.

Peyğəmbər (Allahın ona salamı olsun!) kədərli halda Məkkəyə qayıtdı.

O bu halda ikən mələklər onun yanına gəldilər və ona əziyyət verənləri cəzalandıracaqlarını bildirdilər.

Peyğəmbər isə onlara və övladlarına olan rəhmindən dolayı buna razılıq vermədi.

## Fayda:

*Peyğəmbər (Allahın ona salamı olsun!) insanlara qarşı çox mərhəmətli idi.*

*Onlar üçün zərər deyil, xeyir istəyərdi. Böyük hədəflərə çatmaqdan ötrü gərək biz də onun kimi mərhəmətli və nikbin olaq.*

# ✦ MERAC HADİSƏSİ ✦



Peyğəmbər (Allahın ona salamı olsun!) Məkkəyə qayıtdıqdan sonra sevimli yoldaşı Xədicə və daim onu müdafiə edən əmisi Əbu Talib vəfat etdi. Bu hadisədən sonra onun qəm-qüssəsi daha da artdı.

Bu ərəfədə bir gecə Cəbrayıl onun yanına gəldi və onu Əqsa məscidinə apardı, daha sonra səmaya qaldırdı.

Peyğəmbər səmada öz qardaşlarını, yəni digər peyğəmbərləri (Onların hamısına Allahın salamı olsun!) gördü.

Həmin gecə Uca Allah ona gündə beş dəfə namaz qılmağı əmr etdi. Daha sonra Məkkəyə geri qayıtdı.

O bu hadisəni öz qövmünə danışdıqda ona inanmadılar, əksinə, ona qarşı olan kinləri daha da artdı.

## Fayda:

*Möminin kədəri artdıqda və başına gələn bəlalar çoxaldıqda Uca Allah ona qurtuluşun müjdəsini verər.*

*Uca Allah hər çətinlikdən sonra bir asanlıq yaratmışdır. Mömin bəndənin başına hər dəfə müsibət gəldikdə və iztirabları artdıqda namaza daha çox bağlanmalı və Rəbbinə daha çox ibadət etməlidir.*

# ✦ YƏSRİB ƏHLİ İLƏ GÖRÜŞ ✦



Peyğəmbər (Allahın ona salamı olsun!) Merac hadisəsindən, yəni göylərə etdiyi yolçuluqdan sonra Allahın dinini insanlara təbliğ etməkdən ötrü ona kömək edəcək birini axtarmağa başladı.

Bir gün onun yanına əhalisi bütpərəst və yəhudilərdən ibarət olan Yəsrib şəhərindən bir dəstə yaxşı insan gəldi.

Peyğəmbər onları İslama dəvət etdi, onlar da bunu qəbul edib müsəlman oldular və onu öz şəhərlərində himayə edəcəklərinə razılıq verdilər.

Onlar Peyğəmbərdən xahiş etdilər ki, Quranı və İslamın hökmlərini onlara öyrədəcək birini Yəsrib şəhərinə göndərsin. Peyğəmbər də onlara Musab adlı bir gənci yolladı.

Beləcə Yəsribdə İslam yayılmağa başladı. Oranın əhalisi Peyğəmbərlə (Allahın ona salamı olsun!) görüşəcəkləri günü həsrətlə gözləyirdi.

## Fayda:

*İnsanların hamısı eyni deyildir.*
*Belə ki, onlardan bəziləri yaxşı və xeyirxah, bəziləri isə pis və zülmkardılar.*

*Gərək biz daim yaxşı və xeyirxah insanları axtarıb tapaq və onlarla birlikdə olaq.*

# ✦ YƏSRİB ŞƏHƏRİNƏ KÖÇ ✦



Möminlər gizli şəkildə Məkkədən Yəsrib şəhərinə köç etməyə başladılar.

Daha sonra Uca Allah köç etməsi üçün Peyğəmbərə (Allahın ona salamı olsun!) də icazə verdi.

O da dostu Əbu Bəkrdən onunla yol yoldaşı olmasını istədi.

Əbu Bəkr buna çox sevindi və səfər üçün iki dəvə hazırladı.

Onlar gecə ikən Məkkədən çıxdılar, lakin Yəsrib tərəfə deyil, Sour mağarasına tərəf getdilər və orada gizləndilər. Çünki bütpərəstlər onları öldürmək üçün axtarırdılar.

Müşriklər bir nəticə əldə etməyib axtarışdan əl çəkdikdə onlar da mağaradan çıxdılar və Yəsrib səfərini davam etdirdilər.

## Fayda:

*Dünya həyatı çətinliklərlə doludur.*

*Ona görə də müsəlman dünya işlərində ona dəstək olacaq yaxşı dostlar seçməlidir.*

# ✦ Mədinə şəhərində ✦



Peyğəmbər (Allahın ona salamı olsun!) və Əbu Bəkr "Quba" adlı yerə gəlib çatdılar, orada bir neçə gün qaldılar və həmin yerdə bir məscid tikdilər.

Daha sonra Yəsribə olan yolçuluqlarını davam etdirdilər.

Yəsribə çatdıqda oranın əhalisi yollara, evlərin damlarına çıxaraq Peyğəmbərlə Əbu Bəkri böyük coşqu ilə nəğmələrlə qarşıladılar.

Hər ailə istəyirdi ki, Peyğəmbər onların evində qalsın.

Peyğəmbər (Allahın ona salamı olsun!) Yəsribə yerləşdikdən az bir müddət sonra torpaq ərazisi satın alıb orada müsəlman kişi və qadınların namaz qılmaları, habelə dinlərini öyrənmələri üçün bir məscid tikdi.

Həmçinin Yəsrib şəhərinin adını dəyişib "Mədinə" etdi və Əbu Bəkrin qızı Aişə ilə evləndi.

## Fayda:

***Məscid və camaatla birgə qılınan namazlar müsəlmanın həyatında mühüm yer tutur.***

***Buna görə də məscidlər tikməli və namazlarımızı orada qılmalıyıq.***



Mədinənin camaatı xeyirxah insanlar idi.

Belə ki, onlar Məkkədən yanlarına köç edən din qardaşlarını xoş qarşılamış və onlara əl tutmuşlar: iki evi olan bir evini, çoxlu otaqları olan isə evinin bəzi otaqlarını mühacir (Məkkədən köçüb gələn) qardaşlarına vermişlər.

Həmçinin onlara öz mallarından da pay ayırmışlar.

Hətta ənsarlar (Mədinə əhalisi) Peyğəmbərə (Allahın ona salamı olsun!) belə dedilər:

"Evlərimizi və əkin ərazilərimizi bizimlə onların arasında bölüşdür".

Lakin mühacirlər belə dedilər:

"Xeyr! Sizin əkin sahələrinizdə işləyər və bunun müqabilində pul alarıq".

## Fayda:

***Möminlər qardaşdırlar.***
***Din insanlar arasında olan əlaqəni və isti münasibəti gücləndirir.***

***Bu səbəbdən də biz mömin qardaşlarımızı sevməli və gücümüz çatan qədər onlara yardım etməliyik.***

# ✦ KAFİRLƏRİN ARTAN QƏZƏBİ ✦



**Müşriklər Peyğəmbərin (Allahın ona salamı olsun!) müvəffəqiyyətinə və İslamın yayılmasına görə çox qəzəbləndilər və müsəlmanlarla düşmənçiliyi davam etdirdilər.**

**Belə ki, Mədinədən Məkkəyə ümrə ziyarəti üçün gəlmək istəyən hər kəsə mane oldular və Mədinə əhlinə müsəlmanları öz torpaqlarından çıxarmaları üçün təhdid məktubu göndərdilər.**

Peyğəmbər (Allahın ona salamı olsun!) Mədinənin müsəlman olmayan digər sakinləri ilə tək bir dövlət qurmaları üzərində razılığa gəlib müqavilə bağladılar.

Beləcə müşriklərin qəzəbi daha da artdı və müsəlmanların Məkkədə tərk etdikləri mallarına əl qoydular.

İslamı qəbul edənləri həbs edib onların Məkkədən çıxmalarına qadağa qoydular.

## Fayda:

***İslam dini bizə nizamlı və vəfalı olmağı, habelə hamının əmin-amanlıq içərisində yaşaması üçün müttəfiqlərlə müsbət əlaqələr qurmağı öyrədir.***

# ✦ DİN UĞRUNDA SAVAŞ ✦



Mədinə əhli öz haqlarını müdafiə etməkdən ötrü müşriklərin ticarət yollarına əl qoymaq qərarına gəldi.

Nəticədə, iki tərəf arasında müxtəlif növ savaşlar baş verdi. İlk öncə Bədr döyüşü oldu.

Bu döyüşdə müsəlmanlar qalib gəldilər.

Sonra isə müşriklərin qələbə çaldığı Uhud savaşı baş verdi.

Daha sonra Xəndək döyüşü oldu və bu müharibədə müsəlmanlar qalib gəldilər.

Bu savaşların heç birində müsəlmanlar qadınlara, uşaqlara və qocalara toxunmur, əsirlərlə yaxşı rəftar edirdilər.

## Fayda:

***İslam kamil bir dindir. Bu din hikmətlə və sevgi ilə yayılır. Əgər kimsə bu dinin davamçılarına zülm etsə, o zaman İslam dini canlarını, mallarını və namuslarını qorumaları üçün müsəlmanlara savaşmağa icazə verir.***

# ✦ MÜSƏLMANLARIN ARTAN İZZƏTİ ✦



**İslam dini sürətlə Ərəb yarımadasında yayıldı və müsəlmanların sayı artdı.**

**Müsəlmanların arasında elm inkişaf etdi, onlar Quranı yazmağa və oxumağa başladılar.**

Beləcə hər bir müsəlmanın evində yazılı şəkildə Qurandan bir hissə oldu.

Həmçinin Quranı əzbər bilənlərin də sayı artdı. Habelə Uca Allah müsəlmanlara oruc tutmağı, zəkat verməyi və həcc etməyi əmr etdi.

Müsəlmanlar arasında əlaqələr gücləndi. Onların arasında alim olanlar insanlara təhsil verməyə və onlara yardım etməyə başladılar.

Beləcə insanlar bu dini və İslam təlimini sevdilər.

## Fayda:

*İslam dini və onun qayda-qanunları ilə tanışlıq mühüm bir işdir.*

*Buna görə cidd-cəhdlə çalışmaq və Uca Allaha qarşı ixlaslı olmaq lazımdır. Bu bizim din borcumuzdur.*

# ✦ MƏKKƏNİN FƏTHİ ✦



Müşriklər müsəlmanlara qarşı olan düşmənçiliklərini davam etdirir, onların Kəbəni və Məscidül-Haramı ziyarət etmələrinə mane olurdular.

Peyğəmbər (Allahın ona salamı olsun!) və onunla birgə böyük bir ordu Məkkəni fəth etmək üçün yola çıxdılar.

Beləcə Peyğəmbər (Allahın ona salamı olsun!) Məkkə şəhərini müşriklərdən azad etdi, Məscidül-Harama daxil oldu və bütləri qırdı.

Bəzi insanlar elə hesab etdilər ki, Peyğəmbər müşriklərdən intiqam alacaq. Çünki onlar müsəlmanlara çox zülm etmiş və onları öz doğma yurd-yuvalarından didərgin salmışdılar.

Lakin Peyğəmbər (Allahın ona salamı olsun!) müşrikləri əfv etdi. Beləcə Məkkə əhli İslam dinini qəbul etdi. Sonra isə Peyğəmbər (Allahın ona salamı olsun!) Mədinəyə geri döndü.

## Fayda:

*Dinimiz əzəmətli bir dindir: bizə Allahdan qeyrisinə ibadət etməyi qadağan edir. Peyğəmbərimiz də mərhəmətli bir peyğəmbərdir: öz davamçılarını insanlara qarşı mərhəmətli olmağa təşviq edir.*

*Cəzalandırmağa gücü çatdığı halda əvf etmək isə böyük bir əxlaq nümunəsidir.*

# ƏRƏB QƏBİLƏLƏRİNİN İSLAMI QƏBUL ETMƏSİ



Ərəb qəbilələri müsəlmanların müşriklər üzərində çaldıqları qələbələrindən,

Məkkənin fəthindən və Məkkə əhlinin İslamı qəbul etmələrindən xəbər tutdular.

Onlar Peyğəmbərin (Allahın ona salamı olsun!) gözəl əxlaqının, səxavətli və böyük bir peyğəmbər olduğunun şahidi oldular.

O, kasıblara əl tutur, zənginlərə hörmət edir və özünə zülm edən düşmənlərini bağışlayırdı. O, gözəl bir insan idi: heç kəsi alçaltmaz, əhdi pozmaz, yalan danışmaz, aldatmaz və hiyləgərlik etməzdi.

Ərəb qəbilələri növbə ilə onun qəbuluna gəldilər və özlərinin İslam dövlətinin tərkibinə daxil olduqlarını elan etdilər.

## Fayda:

*Peyğəmbərimiz böyük əxlaq sahibi idi.*

*Gərək biz də sözümüzdə və əməllərimizdə onun izi ilə gedək ki, digər insanların İslam dinini qəbul etmələrinə səbəb olaq.*

# ✦ İSLAM DÖVLƏTİ ✦




Müsəlmanların sürətlə böyüyən, qüvvətlənən və inkişaf edən bir dövləti oldu.

İslam dövlətinə qonşu olan dövlətlər müsəlmanlarla düşmənçiliyə başladılar və müharibə etməyə hazırlaşdılar.

Onlarla müsəlmanlar arasında Mutə və Təbuk savaşları kimi bəzi müharibələr baş verdi.

Müsəlmanlar öz dövlətlərini, dinlərini və əhalisini qorumaq üçün onlara müqavimət göstərdi.

Daha sonra Peyğəmbər (Allahın ona salamı olsun!) İslam dövlətini nizamladı: müxtəlif məntəqələrə əmirlər təyin etdi, zənginlərdən mallarının vergisini (zəkat) alıb kasıblara payladı, habelə digər İslam ayinlərini tətbiq etdi və nəticədə İslam dövləti bərqərar oldu.

## Fayda:

*İslam kamil bir dindir. İnsan ilə Rəbbi arasında əlaqəni nizamladığı kimi, vahid dövlət tərkibində insanların öz aralarında olan əlaqələrini də nizamlayır.*

*İslam dövləti həm insanları himayə edir, həm də onların rahat bir şəkildə ibadət edə bilmələri üçün münbit şərait yaradır.*

# ✦ VİDA HƏCCİ ✦



Hicrətin 10-cu ili Peyğəmbər (Allahın ona salamı olsun!) Allahın evi Kəbəni həcc (ziyarət) etmək qərarına gəldi.

Ərəb yarımadasının hər yerindən müsəlmanlar onun yanına gəldilər.

Peyğəmbər (Allahın ona salamı olsun!) onları Məkkəyə apardı və onlarla birgə həcc etdi.

Onlara belə dedi: "Artıq İslam dini tamamlanmışdır.

Müsəlman müsəlmanın qardaşıdır: ona zülm etməz, ona arxa çevirməz, onu vurmaz və öldürməz.

Zənginlə kasıb, böyüklə kiçik, qadınla kişi və ağ ilə qara arasında heç bir fərq yoxdur.

İnsanlar içində Allaha ən yaxın olan kəs Allaha daha çox itaət edən kəsdir".

## Fayda:

*Əgər biz Peyğəmbərin vida həccində dediklərini anlasaq, o zaman öz dinimizi daha yaxşı tanımış olarıq və insanlara İslam dininin insan haqlarını qoruyan bir din olduğunu isbat edə bilərik.*



Həcc mövsümü bitdikdən sonra Peyğəmbər (Allahın ona salamı olsun!) Mədinəyə geri döndü. Səfərdən sonra bir az yorğunluq hiss etdi.

Daha sonra yorğunluğu o qədər artdı ki, hətta evdən çölə çıxa bilmədi.

Dostu Əbu Bəkrə tapşırdı ki, insanlara namaz qıldırsın. O da camaata namaz qıldırdı.

Peyğəmbər (Allahın ona salamı olsun!) İslam dinini insanlara tam şəkildə çatdırdıqdan, təbliğ etdikdən və bu yolda bütün çətinliklərə sinə gərdikdən sonra 63 yaşında hicrətin 11-ci ili, Rabiul-əvvəl ayında, həftənin birinci günü vəfat etdi və həyat yoldaşı Aişə anamızın evində dəfn edildi.

Müsəlmanlar heç vaxt hüznlənmədikləri və heç vaxt da hüznlənməyəcəkləri qədər qəm-qüssəyə qərq oldular.

## Fayda:

*Biz Peyğəmbərimizi (Allahın ona salamı olsun!) tanıyır və onu sevirik.*

*Çünki o, Allahın dinini bizə çatdırıb. Biz hər işimizdə ona tabe oluruq ki, Allahın izni ilə, Cənnətdə onunla görüşə bilək.*

*Biz onun barədə həddi aşmır və yalnız Rəbbimizi razı salacaq şeyləri dilə gətiririk.*

# PEYĞƏMBƏRİN صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ VƏFATINDAN SONRA




**Peyğəmbər (Allahın ona salamı olsun!) vəfat etdi, amma İslam dini ölmədi.**

Peyğəmbərin vəfatından sonra onun dostları, yəni səhabələr və onlardan sonra gələn müsəlmanlar Şam və Fars diyarına, İraqa, Misirə, Azərbaycana və digər yerlərə yürüş etdilər, İslam dinini milyonlarla insanlara çatdırdılar.

Həmin yerlərdə məscidlər və mədrəsələr (məktəblər) tikdilər. Elmə və alimlərə dəyər verdilər.

Şərqdə və qərbdə böyük bir mədəniyyət qurdular.

Beləcə yer üzünü zülmətdən, cəhalətdən və şirkdən qurtarıb, nura, elmə və təkallahlılıq inancına yönəltdilər.

# MƏHƏMMƏD PEYĞƏMBƏRİN (ALLAHIN ONA SALAMI OLSUN!) ÜMMƏTİ ÜZƏRİNDƏ OLAN HAQLARI

✦✦✦

**1. Peyğəmbərə iman etmək:** Yəni onun Uca Allah tərəfindən peyğəmbər olaraq göndərildiyini, Allah tərəfindən bizə çatdırdığı hər şeyi və təbliğ etdiyi dini qəti şəkildə təsdiqləmək, bütün bunların haqq olduğuna inanmaq, habelə onun tövsiyələrinə əməl etmək.

**2. Peyğəmbəri sevmək:** Peyğəmbərimizi, onun ailə üzvlərini, dostlarını və təbliğ etdiyi İslam dinini sevmək hər bir müsalmanın borcudur.

**3. Peyğəmbərə itaət etmək:** Onun əmr etdiyi: halal və haram saydığı hər şeyə əməl etmək.
Peyğəmbərimizin qadağan etdiyi şeylər "haram", icazəli gördüyü şeylər isə "halal" sayılır. Haram olan əməllərdən mütləq uzaq durmalı və heç bir işdə Peyğəmbərin buyruğundan kənara çıxmamalıyıq. Əgər biz onun dediklərini yerinə yetirməsək, o zaman Uca Allah bizi cəzalandırar və bütün yaxşı əməllərimizi puç edər.

**4. Peyğəmbərin izi ilə getmək:** Gərək biz müsəlmanlar öz etiqadımızda, fikir və düşüncələrimizdə, həyat tərzimizdə, habelə əxlaqımızda onun kimi olaq, ibadətlərimizi onun etdiyi kimi edək. Kim bu şeylərdə Peyğəmbərə tabe olmazsa, onu Qiyamət günü Allah tərəfindən əzab gözləyər. Kim bu şeylərdə Peyğəmbərin yolu ilə gedərsə və ona oxşamağa çalışarsa, onu Qiyamət günü Allah tərəfindən Cənnət mükafatı gözləyər.

**5. Peyğəmbərə hörmət etmək:** Gərək hər bir müsəlman Peyğəmbərə layiq olduğu hörməti göstərsin və onun şanını daim uca tutsun. Peyğəmbərlə yaxından və uzaqdan əlaqəsi olan hər bir şeyə: onun adına, hədislərinə (mübarək kəlamlarına), təbliğ etdiyi İslam dininə, bu dinin qayda-qanunlarına, Peyğəmbərin ailə üzvlərinə və dostlarına hörmətlə yanaşmaq lazımdır. Lakin Peyğəmbəri Allah dərəcəsinə yüksəltmək, ona ibadət etmək olmaz. Bu, qəti şəkildə qadağandır. İbadət yalnız Uca Allaha edilməlidir.

**6. Peyğəmbər üçün dua etmək:** Onun adını dilə gətirdikdə və ya kənardan eşitdikdə onun üçün dua etməli və "sallallahu aleyhi və səlləm" (*Allahın ona salamı, xeyir-bərəkəti olsun!*) deməliyik. Unutmamalıyıq ki, Peyğəmbərə nə qədər çox dua etsək, bir o qədər də əcr və savabımız çox olar.

الحمد لله

Əziz balalar,
Uca Allahdan diləyim budur ki,
bu kitabı oxuduqdan sonra onu sizlərin
öz peyğəmbərinizi daha yaxşı tanımağınıza
və daha çox sevmənizə səbəb etsin. Amin!

Salahova Ləman (Ummu Zeyd)



© Kitabın bütün hüquqları qorunur